## Altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin buraxılması və Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il 21 iyun tarixli 1174-VIQR nömrəli Qərarını və "Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il 21 iyun tarixli Qərarının Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğunun yoxlanılmasına dair" Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Plenumunun 2024-cü il 27 iyun tarixli Qərarını nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 981-ci maddəsinin I hissəsini və 109-cu maddəsinin 1-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Altıncı çağırış Azərbaycan Respublikasının Milli Məclisi buraxılsın.
2. Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər 2024-cü il sentyabrın 1-nə təyin edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 28 iyun 2024-cü il*

## Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin keçirilməsi ilə əlaqədar Qəbələ rayonu ərazisində seçkiqabağı təbliğat və təşviqat aparılması məqsədilə açıq və qapalı yerlərin ayrılması haqqında

"Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununun 9-cu maddəsinin VI bəndinə, Azərbaycan Respublikasının Seçki Məcəlləsinin 75-ci, 86-cı bəndlərinə və "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 4.15.2-ci maddələrinə əsasən, "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 6.8-ci maddəsini rəhbər tutaraq qərara alıram.

1. 2024-cü il sentyabrın 1-də Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin keçirilməsi ilə əlaqədar namizədlərin Qəbələ rayonu ərazisində kütləvi tədbirlər yolu ilə seçkiqabağı təbliğat və təşviqatın aparılması məqsədilə rayonun şəhər, qəsəbə və kəndlərində 30 açıq və 30 qapalı yer ayrılsın. (Siyahısı əlavə olunur - 2 vərəq)
2. Sərəncam "Qəbələ" qəzetində dərc olunsun.
3. Rayon icra hakimiyyətinin sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Fuad Zəkəriyyəzadəyə tapşırılsın ki, sərəncamın surətini aidiyyəti üzrə göndərilməsini təmin etsin.
4. Sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Səbuhi Abdullayev**
**Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı**
*Qəbələ şəhəri, 11 iyul 2024-cü il*

**Qəbələ Rayon İcra Hakimiyyəti başçısının**
**11 iyul 2024-cü il tarixli 71 nömrəli sərəncamı ilə təsdiq edilmişdir**

## "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq Qəbələ rayonu ərazisində kütləvi tədbirlər yolu ilə seçkiqabağı təbliğat və təşviqatın aparılması məqsədilə açıq və qapalı yerlərin ayrılması barədə

| S/N | Açıq yer<br>Ünvanı | Müəyyən edilmiş yer | S/N | Qapalı yer<br>Ünvanı | Müəyyən edilmiş yer | Qeyd |
|---|---|---|---|---|---|---|
| 1. | Qəbələ Olimpiya İdman Kompleksinin stadionu | 5000 | 1. | Qəbələ Mədəniyyət Mərkəzi | 400 | |
| 2. | Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin stadionu | 1200 | 2. | Qəbələ Dövlət peşə Təhsil Mərkəzinin akt zalı | 150 | |
| 3. | Bum qəsəbəsinin mərkəzi | 1000 | 3. | Bum qəsəbə tam orta məktəbin akt zalı | 195 | |
| 4. | Vəndam qəsəbə mədəniyyət evinin həyəti | 1100 | 4. | Vəndam qəsəbə 2 nömrəli tam orta məktəbin akt zalı | 200 | |
| 5. | Nic qəsəbəsinin mərkəzindəki park | 1000 | 5. | Nic qəsəbə 2 nömrəli tam orta məktəbin akt zalı | 200 | |
| 6. | Tikanlı kənd tam orta məktəbin həyəti | 800 | 6. | Tikanlı kənd tam orta məktəbin akt zalı | 110 | |
| 7. | Mıxlıqovaq kənd klubunun həyəti | 900 | 7. | Mıxlıqovaq kənd klubu | 80 | |
| 8. | Mirzəbəyli kəndının mərkəzindəki meydan | 500 | 8. | Mirzəbəyli kənd tam orta məktəbin akt zalı | 55 | |
| 9. | Çuxur Qəbələ kənd mədəniyyət evinin həyəti | 300 | 9. | Çuxur Qəbələ kənd mədəniyyət evi | 100 | |
| 10. | Quşlar kənd tam orta məktəbinin həyəti | 300 | 10. | Quşlar kənd tam orta məktəbinin akt zalı | 50 | |
| 11. | Hacıalılı kənd mədəniyyət evinin həyəti | 600 | 11. | Hacıalılı kənd mədəniyyət evi | 80 | |
| 12. | Kürd kənd tam orta məktəbin həyəti | 300 | 12. | Kürd kənd tam orta məktəbin akt zalı | 80 | |
| 13. | Bayramkoxalı kənd tam orta məktəbin həyəti | 700 | 13. | Bayramkoxalı kənd tam orta məktəbin akt zalı | 60 | |
| 14. | Zalam kənd tam orta məktəbin həyəti | 600 | 14. | Zalam kənd tam orta məktəbin akt zalı | 50 | |
| 15. | Məlikli kənd tam orta məktəbin həyəti | 350 | 15. | Məlikli kənd tam orta məktəbin akt zalı | 50 | |
| 16. | Qəmərvan kənd mədəniyyət evinin həyəti | 350 | 16. | Qəmərvan kənd mədəniyyət evi | 50 | |
| 17. | Böyük Pirəli kənd tam orta məktəbin həyəti | 350 | 17. | Böyük Pirəli kənd tam orta məktəbin akt zalı | 50 | |
| 18. | Cığatelli kənd tam orta məktəbin həyəti | 550 | 18. | Cığatelli kənd tam orta məktəbin akt zalı | 60 | |
| 19. | Tüntül kənd mədəniyyət evinin həyəti | 1000 | 19. | Tüntül kənd mədəniyyət evi | 50 | |
| 20. | Yenikənd kənd tam orta məktəbin həyəti | 400 | 20. | Yenikənd kənd tam orta məktəbin akt zalı | 60 | |
| 21. | Əmirvan kənd klubunun həyəti | 500 | 21. | Əmirvan kənd klubu | 40 | |
| 22. | Zarağan kənd tam orta məktəbin həyəti | 500 | 22. | Zarağan kənd kənd tam orta məktəbin akt zalı | 140 | |
| 23. | Bunud kənd klubunun həyəti | 600 | 23. | Bunud kənd klubu | 40 | |
| 24. | Laza kənd klubunun həyəti | 200 | 24. | Laza kənd klubu | 30 | |
| 25. | Nohurqışlaq kənd stadionu | 700 | 25. | Nohurqışlaq kənd kənd tam orta məktəbin akt zalı | 100 | |
| 26. | Soltannuxa kənd klubunun həyəti | 500 | 26. | Soltannuxa kənd kənd tam orta məktəbin akt zalı | 40 | |
| 27. | Aydınqışlaq kəndinin mərkəzindəki meydan | 400 | 27. | Aydınqışlaq kənd kənd tam orta məktəbin akt zalı | 40 | |
| 28. | Böyük Əmili kəndinin mərkəzindəki meydan | 400 | 28. | Böyük Əmili kənd tam orta məktəbin akt zalı | 50 | |
| 29. | Yemişanlı kəndinin mərkəzindəki meydan | 200 | 29. | Yemişanlı kəndi tam orta məktəbin akt zalı | 60 | |
| 30. | Yeni Dizaxlı kənd tam orta məktəbinin həyəti | 500 | 30. | Yeni Dizaxlı kənd tam orta məktəbinin akt zalı | 80 | |

## Rayon icra hakimiyyəti və Azərbaycan Texniki Universiteti arasında müqavilə

Qəbələ Rayon İcra Hakimiyyətində Azərbaycan Texniki Universitetinin nümayəndələri ilə keçirilən görüşdə Qəbələ şəhərində "Şəhərdaxili hərəkət (mobillik) planının hazırlanması" müqaviləsi ilə bağlı müzakirələr aparılıb. Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, Azərbaycan Texniki Universitetinin rektoru Vilayət Vəliyev, Ömürboyu Öyrənmə Məktəbinin direktoru Aynurə İsmayılova, Logistika və Nəqliyyat İnstitutunun direktoru Fuad Daşdəmirov və Universitetin digər əməkdaşlarının iştirak etdiyi görüşdə mobillik planının əhəmiyyətindən danışılaraq, həyata keçiriləcək layihənin hamı üçün əlverişli, əlçatan və dayanıqlı nəqliyyat sistemləri, o cümlədən həssas əhali qrupundan olanların, qadınların, uşaqların, fiziki qüsurlu və yaşlı insanların ehtiyaclarına xüsusi diqqət yetirməklə, ictimai nəqliyyatın genişləndirilməsi yolu ilə yol təhlükəsizliyinin yaxşılaşdırılmasını böyük töhvə veriləcəyi diqqətə çatdırılmış və layihənin gedişatına dair fikir mübadiləsi aparılmışdır. Sonda Qəbələ Rayon İcra Hakimiyyəti və Azərbaycan Texniki Universiteti arasında "Şəhərdaxili hərəkət (mobillik) planının hazırlanması" məqsədilə müqavilə imzalanmışdır.

